Bölgələrdən mədəniyyət xəbərləri

# Nizami Gəncəvi – Şərq İntibahının zirvəsi

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa Rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə "Ədəbiyyatımızın parlaq dühası" adlı onlayn tədbir keçirilib.

Qazax rayon MKS-nin təşkilatçılığı ilə şəhər multimedia, Aslanbəyli, Hüseynbəyli, Yuxarı Salahlı 1 və 2 nömrəli kənd kitabxana filialları "Nizami Gəncəvi – Şərq İntibahının zirvəsi" adlı onlayn tədbir keçiriblər.

***

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər Heydər Əliyev Mərkəzi, Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun Nizami Gəncəvi məqbərəsi filialı və Balakən rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Azərbaycan ədəbiyyatının Nizami zirvəsi" adlı tədbir keçirilib.

Samux rayon Mərkəzi kitabxanası Uşaq şöbəsinin və rayon MKS-nin Qiyaslı kənd kitabxana filialının təşəbbüsü ilə gerçəkləşən onlayn tədbirlər də bu mövzuya həsr olunub.



Kəlbəcər rayon MKS-nin Zülfüqarlı Qaragüney kənd kitabxana filialı da "Nizami Gəncəvi – 880" başlığı altında onlayn tədbir keçirib.

***



Şəki Regional Mədəniyyət İdarəsi Şəki şəhər MKS-nin Mərkəzi kitabxanasında Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş "Sirlər xəzinəsi" adlı bilik yarışması keçirilib. "Sevgili canan" komandası I, "ASAN könüllüləri"nin "İsgəndər" komandası II, Azərbaycan Dövlət Pedaqoji Universiteti Şəki filialının "Xəmsə" komandası III ye layiq görülüblər.

Şəki Regional Mədəniyyət İdarəsi Zaqatala rayon Yengiyan kənd Eyvaz Əlixanov adına Mədəniyyət evində "Azərbaycan poeziyasının dahisi" adlı onlayın tədbir təşkil olunub.

***

Bərdə Regional Mədəniyyət İdarəsi Yevlax şəhər Heydər Əliyev Mərkəzi, Ombudsmanın Gəncə Regional Mərkəzi və Yevlax MKS-nin birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi və insan hüquqları" mövzusunda videokonfrans keçirilib.

Tərtər Rayon Tarix-Diyarşünaslıq Muzeyi və rayon Mədəniyyət Mərkəzinin tabeliyində olan Yuxarı Sarıcalı kənd klubu Nizami Gəncəvinin 880 illiyi münasibətilə videoçarxlar hazırlayıblar.